**L.M.BAYRAMOVA**
*müəllim*
*e-mail: lala.bayramova2013@mail.ru*
**:https://orcid.org/0009-0001-1273-1869**

**Gəncə Dövlət Universiteti**
(Gəncə şəh., Heydər Əliyev pr., 429)

**10.62021/0026-0028.2025.4.409**

# KİÇİKYAŞLILARIN İDRAK FƏALİYYƏTİNİ SÜRƏTLƏNDİRƏN ƏSAS İNTEQRASİYA ÜSULLARI

***Xülasə.*** *Müəyyənləşdirildi ki, inteqrasiya olunmuş kursun məzmunu tədris proqramlarında əks olunmuş mövzularla yanaşı, həm də əlavə mövzulardan ibarətdir, yəni inteqrasiya həm fənlərarası əlaqə, həm də fəndaxili əsasda həyata keçirilir. Didaktik prinsiplər hər bir tədris fənni üçün mövzunun seçilməsini, onların əlaqəsini, bu və ya digər metodlardan istifadəni, tədris materialının məzmununu əlçatanlıq, əyanilik, həyatilik, praktiki və tərbiyəyönümlü olması baxımından izah etmək üsulunu müəyyən edir.*
*Tədris materialının öyrənilməsinə inteqrasiyalı-tematik yanaşma pedaqogika nəzəriyyəsində hadisələrin və fəaliyyət proseslərinin qarşılıqlı əlaqə və asılılığının fəlsəfi qanununa əsaslanan fənlərarası əlaqələrin metodoloji əsasını təşkil edir.*

***Açar sözlər:*** *tədris materialı, inteqrasiyalı-tematik yanaşma, idrak fəaliyyəti, humanitar fənlər, musiqi fənləri*

Tədqiqat prosesində kiçik məktəb yaşlı uşaqların idrak fəaliyyətinin sürətləndirilməsinə xidmət edə biləcək müxtəlif üsullar içərisində biz, Y.S.Tyunnikovun müəyyən etdiyi inteqrasiya üsullarına daha çox üstünlük verməyi məqsədəuyğun hesab etdik. Bu üsullar aşağıdakılardan ibarətdir: hissi-konkret təsəvvürlərin məzmunlu sintezi (müxtəlif təsəvvürlərin bir tam halında birləşməsi); məzmunlu-anlayış sintezi (müxtəlif biliklərin sintezi əsasında bəzi anlayışların formalaşması); məzmunlu-nəzəri sintez (vahid dünyagörüşü baxışlarının formalaşdırılması); fəaliyyətin semantik strukturunun sintezi (müxtəlif situasiyalarda öz fəaliyyətinin dərkolunması).

İnteqrasiya üsulları qismində müxtəlif məntiqi əməliyyatlar nəzərdən keçirilir ki, bunlar da təlim prosesinin müxtəlif elementlərinin qarşılıqlı əlaqəsinə gətirib çıxarır. Bura ümumiləşdirmə, konkretləşdirmə, təsnifat, strukturlaşdırma, yenidənqurma, modelləşdirmə və s. müxtəlif növləri daxildir. Bütün bunlar bu və ya digər dərəcədə şagirdlərin bilik və bacarıqlarının dərinləşdirilməsinə, birləşdirilməsinə və standartlaşdırılmasına gətirib çıxarır. Məsələn, nəzəri biliklər, müxtəlif müşahidələrin təhlili, eksperimental nəticələr və s. əsasında aparıla bilən ümumiləşdirmələr fənlərarası əlaqələrin möhkəmləndirilməsinə gətirib çıxarır. Ümumiləşdirmələr şagirdləri hadisə və obyektlərin ümumi və fərqləndirici xassələrini başa düşmək imkanı verir ki, şagirdlər formalaşdırılmış biliklərdən yeni şəraitdə istifadə edə bilsin. Bu cür ümumiləşdirmənin əsasında aşağıdakı didaktik priyomlar durur:

– məlum materialda yeni məzmun axtarıb tapmaq;
– müxtəlif hadisə və proseslərin müqayisəli təhlili;
– ümumi və xüsusinin didaktik vəhdətinin üzə çıxarılması;
– müxtəlif obyektlərin funksional, strukturlu və inteqral xüsusiyyətlərinin üzə çıxarılması;
– fənlərarası məzmunda əyani vəsaitlərdən istifadə etməklə şagirdlərdən qarşılıqlı əməliyyatların yerinə yetirməsini tələb edən tapşırıqların qoyulması;
– kompleks problemlərin qoyuluşu və həlli;

– təhsilalanların şəxsiyyətinin inkişafına inteqrasiyalı təlimin təsirinin təhlili.

Pedaqogikada inteqrasiyalı prosesin vasitələri dedikdə təhsilalanların inteqrasiya olunmuş tədris və qeyri-tədris materialının mənimsənilməsi prosesinə cəlb edilməsi yolları nəzərdən keçirilir. İnteqrativ prosesin əsas vasitələri şagirdlərdə müstəqil axtarıcılıq bacarıqlarını inkişaf etdirməyə yönəlmiş problemli tapşırıq və sualların məcmusudur. Onlara tədqiq olunan faktların məqsədyönlü müşahidəsi, konkret hadisələrin ümumi və fərqli əlamətlərinin müəyyən edilməsi və müqayisəsi daxildir. Beləliklə, kiçikyaşlı məktəblilər ümumi və vahid olanı dərk etməyə yönəlmiş tapşırıqları yerinə yetirirlər, qarşılıqlı əməliyyatların tətbiqi əsasında tapşırıqları sistemləşdirməyi və ümumiləşdirməyi öyrənirlər. İnteqrasiya kursuna daxil olan müxtəlif insənət əsərləri ilə tanışlıq, öyrənilməsi və təhlili zamanı şagirdlərə onların oxşarlıqlarını müəyyən etməyə və obrazlı məzmunun üzə çıxarılmasına yönəlmiş tapşırıqlar təklif olunur. Nəticə kimi dəyərləndirici komponent mənimsənilmiş biliklərin kəmiyyət və keyfiyyətini müəyyən etməyə yönəlmiş nəzarət və özünənəzarətin metod və vasitələrinin köməyi ilə həyata keçirilir.

Müasir təhsilin modernləşdirilməsinin hazırkı mərhələsində məktəbin tədris prosesinə inteqrasiyalı yanaşma xüsusilə mühüm yer tutur. Tədris mövzuları arasında belə yanaşma bəzi imkanlara malik fənlərarası əlaqələri əks etdirir:

– tədris mövzularının fənlərarası əhatə dərinliyinin müəyyən olunmasında subyektiv yanaşma ehtimalının azaldılması;

– şagirdlərin diqqətini dünyagörüşünün formalaşmasının əsası kimi vahid biliklər sisteminin yaradılmasında mühüm əhəmiyyət kəsb edən, aparıcı elmi ideyaların üzə çıxarılmasında həlledici rol oynayan tədris fənlərinin əsas istiqamətlərinə yönəltmək;

– müxtəlif didaktik vasitələrdən istifadə etməklə məktəblilərin yaradıcı təşəbbüsünü və idrak müstəqilliyini inkişaf etdirmək, idrak tapşırıqlarını tədricən mürəkkəbləşdirmək, fənlərarası əlaqə yaratmaq üçün mərhələli işin təşkilini həyata keçirmək;

– müxtəlif tədris fənləri vasitəsilə şagirdlərdə idrak maraqlarını formalaşdırmaq;

– yaradıcı əməkdaşlıq həyata keçirmək;

– müxtəlif fənlər vasitəsilə müasir problemləri nəzərdən keçirmək.

Beləliklə, təlim-idrak fəaliyyətində fənlərarası inteqrasiya məsələsinin həllinə yanaşma inteqrasiya əsasında biliklərin səmərəliliyini yüksəltmək kimi müasir məktəbin qarşısında duran məqsədə yaxınlaşmaq imkanı verir. Tədris materialının öyrənilməsinə inteqrasiyalı-tematik yanaşma pedaqogika nəzəriyyəsində hadisələrin və fəaliyyət proseslərinin qarşılıqlı əlaqə və asılılığının fəlsəfi qanununa əsaslanan fənlərarası əlaqələrin metodoloji əsasını təşkil edir. Təlim zamanı fənlərarası inteqrasiyanın planlaşdırılması və həyata keçirilməsi aşağıdakı şəkildə həyata keçirilir:

– tədris olunan fəndə ən çox sintez olunacaq mövzuları üzə çıxarmaq;

– tədris fənninin aparıcı ideya və müddəalarının inteqrasiyaedici funksiyalarını üzə çıxarıb, izah etmək məqsədilə analiz metodundan istifadə;

– şagirdlərin fənlərarası bilik və bacarıqlarının keyfiyyətcə xarakteristikasını vermək və təcrübədə fənlərarası əlaqənin həyata keçirilməsi probleminin öyrənilməsi üzrə iş aparmaq;

– mövzuların mənimsənilməsi zamanı fənlərarası inteqrasiyanın həyata keçirilməsinə pedaqoji prosesin iştirakçılarının (müəllimlərin, digər iştirakçıların) hazırlığının tədqiqini aparmaq;

– fənlərarası əlaqələr əsasında sintezin ən səmərəli şərtlərini, müəyyən mərhələ və yollarını üzə çıxarmaq.

Bir çox alimlər bu qənaətə gəlirlər ki, inteqrasiyalı təlim eyni vaxtda təlimin həm məqsədi, həm də vasitəsidir. Təlimin məqsədi kimi inteqrasiya şagirdlərə çoxcəhətli dünyanı tam şəkildə dərk etmək imkanı verir. Təlimin vasitəsi kimi isə inteqrasiya şagirdlərə ənənəvi fənn biliklərinin kəsişməsində yeni bilik və ideyaların mənimsənilməsinə kömək edir. Bundan əla-

və, inteqrasiya tədris prosesini intensivləşdirməklə, inteqrasiyalı kurslar şəraitində şagirdləri dərsin gedişində müxtəlif fəaliyyət növlərinə qoşaraq, onların stressini, həddindən artıq yüklənməsini, yorğunluğunu aradan qaldırmağa kömək edir. Yuxarıda qeyd olunduğu kimi belə kurs və proqramların yaradılması yaradıcı fəal şəxsə cəmiyyətdə sosial sifarişlərin olması ilə bağlıdır. Şagirdin idrak fəallığı təlim prosesinin sərhəddini müəyyən edir: uşağın fəaliyyəti ilə bilavasitə bağlı olmayan, onun özfəaliyyət prosesinə komponent kimi daxil olmayan hər bir şey təlimə məxsus deyildir. Təlim ciddi mənada həmişə özünütəlimdir. Məktəbdə şagird üçün özünütəlimin şərtləri müəllim tərəfindən yaradılır.

Uşaq bədii qiraəti və musiqi dərslərinin inteqrasiyası zamanı bunu fənlərarası inteqrasiya şəraitində şagirdlərin informasiyaları mənimsəməsinin qarşılıqlı əlaqəsinə dair sxem şəklində də təsəvvür etmək olar. Bu halda, sxem uşaq və böyüklərin zehninin təlim informasiyalarını qarşılıqlı mənimsəmə və təşkilini illüstrasiya edəcəkdir.

İnteqrasiyalı kursun strukturu aşağıdakı mərhələlər üzrə qurulur:

1) tədris proqramlarının analizi;

2) dünyaya emosional-dəyərləndirici münasibət əsasında şagirdlərin təlim-idrak fəaliyyətinin aktivləşdirilməsi məqsədilə mövzuların müəyyən edilməsi;

3) inteqrasiya olunmuş fənlər əsasında təlimin vəzifələrinin konkretləşdirilməsi;

4) müxtəlif növ təlim məşğələləri zamanı inteqrasiyalı kursun həyata keçirilməsi şərtlərinin müəyyən edilməsi;

5) dərs zamanı fənlərarası inteqrasiyanın həyata keçirilməsi imkanlarını müəyyən etmək üçün hər bir dərs üzrə tədris materialının məzmununun təhlilinin təşkili;

6) idrak fəaliyyətinin aktivliyinə kömək edən dərslər və onun ayrı-ayrı mərhələlərini işləyib hazırlamaq;

7) inteqrasiya dərslərinə verilən tələbləri müəyyənləşdirmək.

İnteqrasiya təlimlə eyni təşkil olunmuş çərçivədə həyata keçirilir. Məlumdur ki, təlimin əsas təşkili forması dərsdir. İnteqrasiyanın məqsəd və vəzifələrindən asılı olaraq dərsin aşağıdakı növlərini fərqləndirirlər [18], [117], [156]:

– müxtəlif fənn nəzəriyyələrinə, ümumi ideya və prinsiplərə əsaslanan konseptual inteqrasiya olunmuş dərslər;

– inteqrasiyanın məzmunu praktik məsələlərin həllinə yönəldikdə tətbiqi xarakterli dərslər;

– müxtəlif elmi istiqamətləri vahid metodla və yaxud da bir elmi hadisəni müxtəlif metodlarla öyrənən axtarıcı inteqrasiyalı dərslər;

– özünütəhsil, dərs-mübahisə, dərs-dövrü üzrə inteqrasiyalı dərslər [18, s.198].

Qeyd etmək lazımdır ki, inteqrasiya olunmuş dərslərin təşkili metodikası adi dərslərin aparılması metodikasından fərqlənir. İnteqrasiyalı dərslərin strukturunda ona verilən tələblər aşağıdakılardan ibarətdir [147]:

– tədris materialının dəqiqliyi, yığcamlığı;

– hər bir dərsdə inteqrasiya olunmuş fənlər üzrə öyrənilən materialların məntiqi qarşılıqlı əlaqəsi və əsaslandırılması;

– materialın şərhinin sistematikliyi və əlçatanlığı;

– dərsdə vaxta düzgün əməl etməyin vacibliyi.

Tədris fənlərinin inteqrasiyası üç şərtə əməl etməyi nəzərdə tutur:1) tədqiqat obyektləri üst-üstə düşməli və yaxud da bir-birinə kifayət qədər yaxın olmalıdır; 2) inteqrasiya olunmuş tədris fənlərində eyni və yaxud bir-birinə yaxın tədqiqat metodlarından istifadə olunur; 3) inteqrasiya olunan tədris fənləri ümumi qanunauyğunluqlara, ümumi nəzəri konsepsiyalara əsaslanır [89].

Təcrübədə inteqrasiyanın müxtəlif səviyyələrindən istifadə olunur: müxtəlif növ ayrı, birdəfəlik inteqrasiya olunmuş dərslərin keçirilməsindən tutmuş inteqrasiyalı kursların yaradılmasına qədər, dərslərin planının strukturu aşağıdakı kimi qurula bilər:

1. Təşkilati hissə.
2. Təkrar.
3. Yeni leksikaya giriş.
4. Relaksaçiya (Fasilə).
5. Refleksiya.

İnteqrasiyalı dərslərin müəyyən üstünlükləri vardır: motivasiyanı yüksəldir, idrak maraqlarını inkişaf etdirir, dünyanın vahid mənzərəsinin formalaşdırılmasına köməklik edir, şifahi nitqi inkişaf etdirir, musiqi və bədii yaradıcılığa dair bacarıq və vərdişlərin inkişafına köməklik edir, bilikləri sistemləşdirməyə imkan verir, geniş informasiya dairəsinə malik olur. Ona görə də humanitar fənlər üzrə dərslər işləyib hazırlayarkən, nəzərə almaq lazımdır ki, hər bir mövzu incəsənət, musiqi, ədəbiyyat, riyaziyyat, rəssamlıq və s. sintezi kimi mədəniyyət tarixini, elm, texniki-tərəqqi tarixini, aktyorluğu (rolagirməni) özündə birləşdirən daxili inteqrasiyaya malik olur.

Beləliklə, inteqrasiya olunmuş kursun məzmunu tədris proqramlarında əks olunmuş mövzularla yanaşı, həm də əlavə mövzulardan ibarətdir, yəni inteqrasiya həm fənlərarası əlaqə, həm də fənndaxili əsasda həyata keçirilir. Didaktik prinsiplər hər bir tədris fənni üçün mövzunun seçilməsini, onların əlaqəsini, bu və ya digər metodlardan istifadəni, tədris materialının məzmununu əlçatanlıq, əyanilik, həyatilik, praktiki və tərbiyəyönümlü olması baxımından izah etmək üsulunu müəyyən edir.

***İşin elmi nəticəsi.*** Beləliklə, təlim-idrak fəaliyyətində fənlərarası inteqrasiya məsələsinin həllinə yanaşma inteqrasiya əsasında biliklərin səmərəliliyini yüksəltmək kimi müasir məktəbin qarşısında duran məqsədə yaxınlaşmaq imkanı verir.

***İşin elmi yeniliyi*** ondan ibarətdir ki, tədris materialının öyrənilməsinə inteqrasiyalı-tematik yanaşma pedaqogika nəzəriyyəsində hadisələrin və fəaliyyət proseslərinin qarşılıqlı əlaqə və asılılığının fəlsəfi qanununa əsaslanan fənlərarası əlaqələrin metodoloji əsasını təşkil edir.

***İşin praktik əhəmiyyəti.*** Kiçikyaşlı məktəblilərin idrak fəallığının təşəkkülü və inkişafından ötrü qurulmuş inteqrasiyaedici dərslər ibtidai sinif müəllimləri üçün çox faydalıdır.

**Ədəbiyyat**


1. Mendizadə, M.M. Ümumtəhsil məktəblərində təlim-tərbiyə prosesinin təkmilləşdirilməsi / M.Mehdizadə. – Bakı: Maarif, –1982. – 382 s.
2. Колягин, Ю.М. Интеграция школьного обучени / Ю.М. Колягин // Начальная школа. – 2000. № 9. – с.28-39.
3. Мельник, Э.Л. Интегрированные уроки / Э.Л.Мельник //Начальная школа. – 2008. № 5. – с.74.
4. Плаксина, Л.В. Интегрированный урок: в чём его суть? / Л.В. Плаксина // Учитель. – 2016. № 6. – с.24-27.
5. Рашкова, С.А. Межпредметные связи / С.А.Рашкова. – София, – 2017. – 79 с.


**L.M.Bayramova**

**Main Ways of Integration, Accelerating the Cognitive Activities of Young Children**

***Summary***

It is determined that the content of the integrated course consists of additional topics, in addition to the topics reflected in the curricula, that is, integration is carried out both on an intersubjectand intra-subject basis. Didactic principles determine the choice of topics for each subject, their interrelation, the use of

certain methods, and the method of explaining the content of the educational material from the point of view of accessibility, clarity, vitality, practicality and educational focus.

The methodological basis of interdisciplinary connections is an integrated-thematic approach to the study of educational material, based on the philosophical law of the interrelation and dependence of phenomena and processes of activity in pedagogical theory.

***Keywords:*** *educational materials, integrated-thematic approach, cognitive activity, humanitarian subjects, musical subjects*

**Л.М.Байрамова**

**Основные способы интеграции, ускоряющие познавательную деятельность детей младшего возраста**

***Резюме***

Определено, что содержание интегрированного курса состоит из дополнительных тем, помимо тем, отраженных в учебных планах,то есть интеграция осуществляется как на межпредметной, так и на внутрипредметной основе.Дидактические принципы определяют выбор тем по каждому предмету, их взаимосвязь, использование тех или иных методов, способ разъяснения содержания учебного материала с точки зрения доступности, наглядности, жизненности, практичности и воспитательной направленности.

Методологическую основу межпредметных связей составляет интегрированно-тематический подход к изучению учебного материала, базирующийся на философском законе взаимосвязи и зависимости явлений и процессов деятельности в педагогической теории.

***Ключевые слова:*** *учебные материалы, интегрированно-тематический подход, познавательная деятельность, гуманитарные предметы, музыкальные предметы*

*Rəyçi: ped.e.d., prof. Ş.Tağıyev*

*Redaksiyaya daxil olub: 13.10.2025*